Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Əziz oxucular!

**Tanınmış ictimai-siyasi xadim, yazıçı-publisist, mərhum Sadıq Murtuzayev, publisist, Əməkdar hüquqşünas Müzəffər Ağazadə və yazıçı-rejissor, publisist-jurnalist, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlu dünya dahilərinin, səmavi insanların və Azərbaycan mütəfəkkirlərinin altı mindən çox kəlamlarını, aforizmlərini toplayıb, tərcümə eləyib və "Sözdən yaranan incilər" adlı kitab kimi çapa hazırlayırlar. 6 oktyabr 2022-ci il tarixdəki sayımızdan başlayaraq həmin kəlamları, aforizmləri qəzetimizin səhifələrində çap edirik. İnanırıq ki, sözdən yaran bu incilər sizin xoşunuza gələcək və onları öz yaddaşınıza köçürəcək, gündəliyinizə yazacaqsınız.**

## Nizami Gəncəvi (1141-1209-cu illər)

-Ürəkdən gələn söz ürəyə yeriyir.
-Sevənin gözləri kor olur.
-Elə olur ki, sevgi hiss olunmadan keçib gedir.
-Dostsuz günlər - acı fəlakətdir.
-Bəlanın böyüyü dostsuzluqdur.
-Sevincdənmi, kədərdənmi nəmlənib,
Gözlər o gözlərdir, yaş o yaş deyil.
Cəm gözəllik camalında cəmlənib,
Baxış o baxışdır, qaş o qaş deyil.
-Göydə ol, yerdə ol, fərqi yox bunun,
Torpaqsan, yenə də torpaqdır sonun.
-Kim tikan əkərsə, tikan dərəcək,
Kim nicat verərsə, nicat görəcək.
-Alimlə xoş rəftar etsən əgər sən,
Özün öz elmini aşkar edərsən.
-Səninlə biri xoş danışsa əgər,
Könüldən dinlə ki, bir xeyri dəyər.
-Bir cizgi naxışdan çıxırsa kənar,
Başqa cizgilər də bütün pozular.
-İnsan etsə əgər bir işə vərdiş,
Çətin olsa belə, görülər bu iş.
-İnsana arxadır onun onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.
-Taxtın payəsini o qədər yüksəlt,
Yıxıldığın zaman çəkmə əziyyət.
-Ömür keçib gedəndi, dünya qalandı sənə,
Ülviyyətə sədaqət şərəfdi, şandı sənə.
-Öz halal zəhmətinlə namuslu insan sayıl,
Hər yetənə alçalma, əl açıb olma sail.
-Ağıl-kamal bəsləməz igidliyə ədavət,
Hünər də, igidlik də ədavətdir, ədavət.
-Xidmət etmək sayılır kişilikdən insana,
Xalqına xidmət etmək bir şərəfdir insana.
-Ömrümüzün günü sayılır bir-bir,
Eşqsiz keçən gün ölü deməkdir.



-Poladdan dağ olsa, yenə də inan,
Vurub parça-parça dağıdar insan.
-Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana.
-Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.
-Dünya gedərgidir, dalınca getmə!
Qalmayacaq şeyə sitayiş etmə!

### Sülh, müharibə, ədalət və zülm haqqında

- Atəşi üfürsən alışıb yanar,
Onu suya bassan, sönər aşikar.
- Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət!
- Haqq sözü eşitmək istəməyənlər,
Ağlını itirib hədər ölərlər.
- Künc-bucaqda qalana sən bu qədər atma ox,
Yoxsulların ahından, qarğışından çəkin, qorx.
-Dünyanın işini yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
-Yaxşı iş də görsən, pis iş də, inan,
Unutmaz onları bu qoca dövran.

### Hünər, cəsarət və mərdlik haqqında

- Nə üçün boynuna min yük alırsan?
Zalımın zülmündən məmnun qalırsan?
-Sən də süsən kimi ipəkdən olsan,
Səni saf torpaq da yaralar, inan!
-Zəlillik ürəyə ağrılar salar,
Zülmə dözənlərin sonu xar olar.
-İnsanı sarsıdar göz yaşı, nalə,
Ah çəkib, of edən yetməz kəmalə!
-İradəsiz olma, iradəsizlər
ayaqsız qurd kimi yerdə sürünər.
-Fil keçsin üstündən tapdalayaraq,
Xəsis adamlara əl açma ancaq.
-Mərd olmaq gərəkdir həyatda hər an,
Mərdliklərlə çatar arzuya insan.
-Evdə tək arpası olmayan bir kəs
Yarım arpa qədər minnət götürməz.
-Heç qorxma acizə zülm edən kəsdən,
Yoxsa qul olarsan sən ona hökmən.
-Yüksəklərə ucaldar hünər, cəsarət səni,
Hünərsiz alçalarsan, tapar rəzalət səni.
-Böyüklə vuruşda insan ad alar,
Alçaqla vuruşda özü alçalar.
-Aman istəyincə qurbağalardan,
Balıq tək sulara tez qərq olarsan.
-Qanı çörəyinə yavanlıq etsən,
Papağı dik saxla, baş getsə əldən.
- Mərdə təmiz adı candan əfzəldir,
Ləkəli qalmaqdan ölüm gözəldir.
-Ovcumun içində olsa da belə,
Dikmərəm gözümü özgə mülkünə.

### Dostluq və düşmənlik haqqında

-Ehtiyatsız bir quş düşərsə tora,
Başqa quşları da sürüklər ora.
-Dost qəlbi torpaqdır, ona toxunsan,
Əlin paklaşacaq bu toxunuşdan.
-Heç kimsəylə yola getmirsə bir kəs,
Ona bel bağlanıb bir iş görülməz.
-Ağıllılar bilir, tək yesə hər kəs,
Təklikdə də ölər, dost-aşna görməz.
-İstəyirsən evin salamat qala,
Evə yad adamı buraxma əsla.

### Xalqa xidmət və xeyirxahlıq haqqında

-Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
-Yaxşılığı əzəldən adət etsən özünə,
O yaxşılıq hər yanda qapı açar üzünə.
- Belə misal çəkmiş aqil bir insan:
"Qurd girməz sürüyə yatmasa çoban".
-Çalış öz xalqının işinə yara,
Geysin əməlinlə dünya zər-xara.
- Hünər ardınca qoş, xalqa xeyir saç,
Qapılar bağlama, ər ol, qapı aç.
-Səadət kamalla yetişər başa,
Xalqa xidmət elə, ədəblə yaşa.
-Bulud tək damcıyla su al dənizdən,
Verəndə bol-bol ver, əsirgəmədən.
-Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?
-Bir elm öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.